**Azərbaycan Tibb Universtetinin**

**İctimai Səhiyyə fakultəsinin**

**06.06.2022-ci il tarixli**

**Fakultə Elmi Şurasının iclasının**

# Q Ə R A R I

**Protokol № 8**

## *İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİNİN ELMİ ŞURASI QƏRARA ALIR:*

I. 1. Magistrantların yaz imtahan sessiyasına və dissertasiya müdafiəsinə hazırlığının vəziyyəti barədə "Səhiyyə menecmenti" ixtisası üzrə koordinator A.Mehdiyevanın və "Klinik psixologiya" ixtisası üzrə koordinator R.Quliyevanın təqdim etdiyi məruzə qənaətbəxş hesab edilsin;

2. ATU-nin ETM-nin direktoru prof. Q.Qarayevin ETM-in illik fəaliyyəti barədə hesabatı qənaətbəxş hesab edilsin.

II. Kafedra müdirlərinə tapşırılsın ki:

1. Magistrantların yaz imtahan sessiyasının və dissertasiya müdafiəsinin yüksək səviyyədə aparılmasına şərait yaradılsın;

2. ETM-in elmi-texniki potensialından fakültənin nəzdində olan kafedraların doktorant və dissertantlarının, həmçinin tələbələrin də istifadəsinə imkan yaradılsın;

3. Kafedralarda yerinə yetirilən elmi-tədqiqat işlərinin kafedralararası müştərək əməkdaşlıq şəraitində aparılmasına şərait yaradılsın;

4. Elmi məqalələrin müxtəlif kafedra əməkdaşları tərəfindən kafedralararası əlaəqləndirmə prinsipləri əsasında yazılmasına diqqət yetirilsin;

5. Müsabiqəyə sənəd təqdim etmiş əməkdaşların Fakültə Elmi Şurasında iştirakı təmin edilsin;

6. FEŞ-na təqdim olunan dissertasiya hesabatları əvvəlcədən kafedrada müzakirə edilsin və hesabatların təqdimatında elmi rəhbərlərin iştirakı təmin olunsun;

7. İmtahanların gedişi müddətində kafedralarda tələbələr üçün məsləhət saatlarının təmin edilməsinə diqqət artırılsın;

8. Əməkdaşların əmək intizamına nəzarət olunsun.

III. Dekanlığa tapşırılsın ki, nəzərdə tutulan işlərin yerinə yetirilməsinə nəzarəti gücləndirsin.

Sədr: prof. Anar Ağayev

Elmi katib: dos. Yaqut Hacıyeva